შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

Müəllimin səlahiyyətinin təsdiqlənməsi
iyul, 2017

# İbtidai pillə müəllimləri üçün test

## Təbiətşünaslıq

Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir - peşə biliyi və akademik qabiliyyət.

Testin maksimal xalı 65-dir.

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra cavabı seçin. Test üzərində işlədikdə verilmiş xəritələrdən istifadə edin.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 5 saat verilir.

Uğurlar arzulayırıq!

- ***Seçimli cavabları olan sual – tapşırıq № 1-18; 27-32; 40-46.***

| *Təlimat* |
|---|
| Hər suala dörd cavab verilir. Onlardan ancaq biri düzgündür. Sizin seçdiyiniz cavabın düzgün işarə olunmasının yeganə yolu cavablar vərəqinin müvafiq xanasında X işarəsi qoymaqdır. Hər tapşırığa 1 xal verilir. |

- ***Uyğunluğun müəyyən edilməsi - tapşırıq № 33-37***

| **Təlimat** |
|---|
| Tapşırıqda verilmiş iki siyahı arasında uyğnuluğu müəyyən edin. Cavabı cavablar vərəqində verilmiş cədvələ yazın. Hər hərfin altından müvafiq rəqəmi yazın. Tapşırığa maksimum 1 xal verilir. |

- ***İnformasiyanın təhlili - tapşırıq № 19-26; 38-39.***

| **Təlimat** |
|---|
| Verilən informasiya ilə diqqətlə tanış olun (foto, cədvəl, qrafik və s.) və suallara cavab verin. Cavabı cavablar vərəqində ayrılmış müvafiq yerə yazın. Xalların miqdarı konkret tapşırığa görə müəyyən edilir. |

# Fənn biliyi

1. **Canlı təbiətdə mövsüm (bitkilərin çiçəklənməsini, quşların miqrasiyasını, məməlilərdə qış yuxusunu və s.) dəyişkənliyini hansı abiotik amil tənzim edir?**

(ა) Gün müddəti

(ბ) Temperatur

(გ) Rütubətlik

(დ) Havanən tərkibi

**2. Onurğalı heyvanlardan hansı orqanizmlərə dolayı inkişaf xasdır?**

(ა) Quşlara

(ბ) Amfibiyalara

(გ) Sürünənlərə

(დ) Məməlilərə

**3. Onurğalı heyvanların hansı sinfinin nümayəndələri həm dəri, həm də ağ ciyərlər ilə tənəffüs edirlər?**

(ა) Balıqlar

(ბ) Amfibiyalar

(გ) Sürünənlər

(დ) Quşlar

**4. Artktika mühitinə uyğunlaşmağa ağ ayıya nə köməklik edir?**

I – qalın, ağ tükü

II – dərialtı piy qatı

III – sürətlə üzmə qabiliyyəti

(ა) Yalnız I

(ბ) Yalnız II

(გ) Yalnız I və II

(დ) I, II və III

5. **Daxili mayalanma və xarici inkişaf hansı rəqəmlə qeyd olunmuş orqanizm üçün xasdır?**




(ა) 1 və 3

(ბ) 1 və 4

(გ) 2 və 3

(დ) 3 və 4

6. İnfeksiyon xəstəliyi (qızılça) keçirdikdən sonra, bu xəstəliyə qarşı xəstədə imunitet yarandı. Verilmiş əyrilərdən hansı imunitetin yaranma prosesinə uyğundur?

**Qanda anticisimlərin miqdarının zamanla dəyişməsi**




(ა) A

(ბ) B

(გ) C

(დ) D

**7. Ağır çəkili insanlara şirniyyat qəbulunun məhdudlaşdırılmasını tövsiyə edirlər, çünki artıq karbohidratlar onun orqanizmində:**

I – yağlara çevrilir

II – zülallara çevrilir

III - əzələlərdə və qaraciyərdə toplanır

(ა) Yalnız I

(ბ) Yalnız II

(გ) Yalnız III

(დ) II və III

**8. Alimlərin ehtimalına görə həlqəvi qurdlar və həşəratlar başlanğıcı ümumi əcdaddan alırlar. Həlqəvi qurdlarla qohumluq əlagəsini həşəratların inkişafının hansı mərhələsi daha çox göstərir?**

(ა) Sürfə

(ბ) Qurd

(გ) Pup

(დ) Yetkinlik

9. İllustrasiyada suda yaşayan onurğalı heyvanlar verilib. Təyin edin, suda olan oksigenlə hansı tənəffüs edir?




(ა) A

(ბ) B

(გ) C

(დ) D

**10. İllustrasiyadan istifadə edərək təyin edin, toxumla hansı *çoxalmır*?**




(ა) Yalnız A

(ბ) Yalnız B

(გ) A və C

(დ) B və D

11. İllustrasiyada həzm sisteminin orqanları latın hərfləri ilə qeyd olunub. Təyin edin, zülalların həzmi hansı orqanda başlayır?




(ა) A

(ბ) B

(გ) C

(დ) D

**12. Masanın üzərində dörd əşya var:**

I – 1 qr kağız vərəqi

II – 2 qr mis məftili

III – 3 qr alüminium mismarı

IV – 4 qr dəmir mismsrı

**Maqnit hansını daha asan qaldırar?**

(ა) I

(ბ) II

(გ) III

(დ) IV

13. Şxemdə çəkisiz link təsvir olunub. Onun üzərində dörd dəlik qeyd olunub. Bu dəliklərin hansından yük asmaq lazımdır ki, link tarazlıqda olsun?




(ა) 1

(ბ) 2

(გ) 3

(დ) 4

**14.** Şəkildə maye menzurun cisim əlavə edilməzdən əvvəl və əlavə edildikdən sonrakı təsviri verilib. Həmin cismin elektron tərəzidəki təsviri də göstərilib. Cismin sıxlığı nəyə bərabərdir? Cism pinaya qoyulmazdan əvvəl tərəzi sıfırlanıb.




(ა) 5 qr/sm³

(ბ) 7,6 qr/sm³

(გ) 8 qr/sm³

(დ) 14,4 qr/sm³

15. Dioqramda bərabər hərəkət edən dörd cismin hərəkət zamanı və bu zamanda keçilən məsafə təsvir olunub. Hansı cismin  sürəti ən böyükdür?




(ა) 1

(ბ) 2

(გ) 3

(დ) 4

16. Su ilə dolu şüşəni soyuducunun buzxanasına qoymaq olmaz, çünki su donduqda şüşə sınacaq. Bunun səbəbi nədir?

(ა) Şüşəyə nisbətən su daha tez donur

(ბ) Şüşəyə nisbətən su daha gec donur

(გ) Su donduqda genişlənir

(დ) Su donduqda sıxılır

**17. Üç eyni qabda bərabər həcmli A, B və C maye maddələrini çəkdilər. Nəticələr cədvəldə verilib:**

| Boş qabın çəkisi | A maddəsilə dolu qabın çəkisi | B maddəsilə dolu qabın çəkisi | C maddəsilə dolu qabın çəkisi |
|---|---|---|---|
| 25 qr | 75 qr | 72 qr | 65 qr |

**Bundan sonra hər üç maddəni eyni bir qaba yerləşdirdilər. Əgər məlumdur ki, A maddəsi B-də həll olur, lakin C maddəsi A və B maddələrində həll olmursa, aşağıda verilən şəkillərdən hansı qablarda maddələrin paylanmasını düzgün ifadə edir?**

(ა)



(ბ)



(გ)



(დ)


**18. Karbondioksid üçün aşağıda sadalananlardan hansı düzdür?**

I – fotosintez nəticəsində alınır

II – xörək sodasına sirkə əlavə etdikdə alınır

III – yanmaya kömək edir

IV – əhəngli suyu bulandırır

(ა) I və III

(ბ) I və IV

(გ) II və III

(დ) II və IV

**19. Tərkibində şəkər olan 4 müxtəlif qarışıq verilib:**

| Qarışıq | Qarışığın tərkibi |
|---|---|
| I | Şəkər və xörək duzu |
| II | Şəkər və qum |
| III | Şəkər, xörək duzu və qum |
| IV | Şəkər, təbaşir və qum |

**Şəkəri ayırmaq üçün hər bir qarışığı suya əlavə etdilər, yaxşı qarışdırdılar və süzdülər. Filtrdən keçmiş məhlulu buxarlandırdılar.**

**Təsvir olunmuş üsulla hansı qarışıqdan / qarışıqlardan saf şəkər almaq olar?**

**Cədvəlin müvafiq xanasına/xanalarına X işarəsini yazın.**

*( maksimal xal 1)*

| I | II | III | IV |
|---|---|---|---|
| | | | |

**20. Yumurtalamaya nibətən diribaladoğma ilə çoxalmanın hansı üstünlükləri var?**

*( maksimal xal 1)*

**21.** **Qidalanma tipinə görə məməliləri üç əsas qrupa bölürlər: ətyeyənlərə, otyeyənlərə və hərşeyyeyənlərə. İllustrasiyada kəllə skletləri latın hərfləri ilə qeyd olunub. Aşağıdakı cədvəldə qidalanma növünə uyğun olan kəllə sümüyünü ifadə edən hərfi yazın.**

*(maksimal xal 1)*




| | |
|---|---|
| Ətyeyən | |
| Otyeyən | |
| Hərşeyyeyən | |

**22.** Bitkilərdə meyvələrin və toxumların çoxalması müxtəlif üsullarla (külək vasitəsilə, heyvanlar vasitəsilə, öz-özünə tozlanma) həyata keçirilir. Aşağıdakı cədvəldə meyvənin çoxalma vasitəsinə uyğun olan meyvəni qeyd edən hərfi yazın. *Mümkün olan variantların hamısını yazın!*

*(maksimal xal 1)*




| | |
|---|---|
| Külək vasitəsilə | |
| Heyvanlar vasitəsilə | |
| Öz-özünə tozlanma | |

**23.** **Bitkinin gövdəsini bükdülər, yarpağını kolbaya saldılar və kolbanın ağzını pambıqla elə bağladılar ki, bitki zədələnmədi (şəkilə bax). Bir qədər keçdikdən sonra kolbanın divarlarında su damcıları əmələ gəldi.**

*(maksimal xal 2)*



23.1. (1) Kolbanın divarlarında su damcılarının əmələ gəlməsini izah edin.

23.2. (1) Bu prosesin bitki üçün nə əhəmiyyəti var?

**24. Verilmiş qida halqasında II sıra istifadəçiləri (konsumentləri) hansı rəqəmlə qeyd olunub?**
***Mümkün olan variantların hamısını yazın!***

*( maksimal xal 1)*



## 25. İllustrasiyadan istifadə edərək suallara cavab verin:

*( maksimal xal 2)*




25.1. (1) İllustrasiyada hansı proses təsvir olunub?

25.2. (1) Bu proses nəticəsində nə sintez olunur?

**Karbondioksid-ნახშირორჟანგი**
**Su-წყალი**
**Oksigen-ჟანგბადი**

26. İllustrasiyada qida zənciri verilib. Ən çox hansı iki dairənin çıxarılması canavar sayısının azalmasına səbəb olar?

*( maksimal xal 1)*




**Günəş şüaları-მზის სხივები**
**Dənli bitkilər-მარცვლეული**
**Siçanlar-თაგვი**
**Kirpi- ზღარბი**
**Dələ- ციყვი**
**Göbələk -სოკო**
**Şabalıd ağacı -წაბლის ხე**

## 27. Fernando Maqelanın səyahətinin marşrutu  hansı xəritədə verilib?




(ა) A

(ბ) B

(გ) C

(დ) D

## 28. Hablinin kosmik teleskopla çəkdiyi şəkildə nə təsvir olunub?



(ა) Qara dəlik

(ბ) Kometa

(გ) Asteroid

(დ) Qalaktika

**29. Verilmiş illustrasiya əsasən təyin edin, Gürcüstanda ilin hansı fəslidir?**



(ა) Qış

(ბ) Yaz

(გ) Yay

(დ) Payız

**30. Maqnituda hansı təbii fəlakətin ölçü vahididir?**

(ა) Sürüşmənin

(ბ) Qar uçqununun

(გ) Vulkan püskürməsinin

(დ) Zəlzələnin

## 31. Düzgün ifadə hansıdır?

(ა) Qara dəniz Dardanel boğazı ilə Mərmər dənizinə birləşir

(ბ) Tores boğazı Avstraliyanı Tasmaniya adasından ayırır

(გ) Panama kanalı Sakit okeanı Atlantik okeanı ilə əlagələndirir

(დ) Baltik dənizi daxiliqitə dənizləri arasında ən dərindir.

**32. A və B istirahət parkları arasındakı məsafə nə qədərdir?**




(ა) 2,8 km

(ბ) 3,5 km

(გ) 4,3 km

(დ) 8,0 km

**33. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavabın təkrarlanması mümkündür):**

<table>
<tr><th colspan="6">I siyahı</th></tr>
<tr><td>ა</td><td>ბ</td><td>გ</td><td>დ</td><td>ე</td><td>ვ</td></tr>
<tr><td>Şavşeti</td><td>Tbilisi</td><td>Qombor</td><td>Axalsixe</td><td>İvri</td><td>Kodor</td></tr>
<tr><th colspan="6">II siyahı</th></tr>
<tr><td colspan="2">1</td><td colspan="2">2</td><td colspan="2">3</td></tr>
<tr><td colspan="2">Qayalıq</td><td colspan="2">Dağ silsiləsi</td><td colspan="2">Yayla</td></tr>
</table>

## 34. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavabın təkrarlanması mümkündür):

| **Yaşayış məntəqəsi** | | | | | |
|---|---|---|---|---|---|
| ა | ბ | გ | დ | ე | ვ |
| Surami | Tviş | Bolnisi | Duşeti | Xvançkara | Çakvi |

| **Yaşayış məntəqəsinin növü** | | |
|---|---|---|
| **1** | **2** | **3** |
| Şəhər | Kənd | Qəsəbə |

## 35. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavabın təkrarlanması mümkündür):

**Günəş sisteminin səma cisimlərinin şəkli**

| | | | |
|---|---|---|---|
|  (ა) Avropa |  (ბ) Vesta |  (გ) Qalea |  (დ) Uran |
|  (ე) Pluton |  (ვ) Ay |  (ზ) Mars |  (თ) Serera |

**Səma cisminin növü**

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Planet | Planetin təbii peyki | Cırtdan planet | Asteroid | Kometa |

**36. Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavabın təkrarlanması mümkün deyil):**

**İllustrasiya**

ა


ბ


გ


დ



ე


ვ


**Proses / hadisə**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| Gecə-gündüzün dəyişməsi | Fəsillərin dəyişməsi | O tərəfə bu tərəfə dalğalanma hərəkətləri | Günəşin tutulması | Ayın tutulması | Briz | Muson | Kiçik su dövranı | Böyük su dövranı |

**37.** Uyğunluğu müəyyən edin (Nəzərə alın ki, cavabın təkrarlanması *mümkün deyil*):

| İllustrasiya | |
|---|---|
| ა  | ბ  |
| გ  | დ  |

**Adlandırılması**

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Düzənlik çayı | Dağ çayı | Pik | Təpəcik | Aysberq | Buzlaq |

38. (2) Şagirdlər verilmiş ərazinin planına əsasən sadalanan tapşırıqlardan hansını yerinə yetirə bilməzlər? Cavabınızı əsaslandırın.




**Şərti işarələr**

**Şəhər-ქალაქი**
**Kənd-სოფელი**
**Çay, oxla istiqaməti göstərilib-მდინარე, ისრით მითითებულია მიმართულება**
**Qarışıq meşə-შერეული ტყე**
**Çəmənlik-მინდორი**

**ბოსტნები - Bostanlar**
**ბაღები - Bağlar**

(1) Sakao çayı (მდ. საკაო) Barula çayının (მდ. ბარულას) sağ qoludur, yoxsa sol?
(2) Keti kəndindən სოფელი (კეთიდან) Axalşeni qəsəbəsinədək დაბა (ახალშენამდე) məsafə nə qədərdir?
(3) Qarışıq meşə Keti kəndindən სოფელ (კეთიდან) hansı istiqamətdə yerləşir?
(4) Keti kəndində სოფელ (კეთში) kənd təssərüfatının hansı şöbəsi inkişaf edib?

**39. (6) Məlumatı analiz edin və suallara cavab verin:**

**Müəllim təbiətin tədrisi kursu ilə nəzərə alınmış sualların bilik səviyyəsinin yoxlanılması məqsədiylə V sinif şagirdlərinə yekunlaşdırıcı test işi apardı.**

**Müəllimin hazırladığı yekunlaşdırıcı test:**

I. **Yer kürəsində fəsillərin dəyişməsinə nə səbəb olur?**
   a. Yer kürəsinin öz xəyali oxu ətrafında fırlanması; b. Yer kürəsi ətrafında Ayın fırlanması;
   c. Yer kürəsinin günəş ətrafında fırlanması; d.Yer kürəsinin və günəşin qarşılıqlı cazibəsi.

II. **Okeanlarda və dənizlərdə suyun dalğalanmasına nə səbəb olur?**
   a. Orbitin yastılığına nisbətən Yer kürəsinin xəyali oxunun əyilməsi
   b. Yer kürəsi üzərində suyun və qurunun nisbəti
   c. Yer kürəsinin və Ayın qarşılıqlı cazibəsi
   d. Yer kürəsində yağışlı və quraqlı günlərin əvəz olunması

III. **Havanın temperaturu gecə-gündüz ərzində adətən nə zaman ən aşağıdır?**
   a. Sübh çağında; b. Günorta; c. Qaranlıqlaşanda; d. Gecəyarsında.

IV. **Xəritədə verilmiş coğrafi obyektlərdən hansı Tbilisidən cənubi-qərb istiqamətdə yerləşir?**
   a. Mamison aşırımı; b. Jinval suqoruğu; c. M. Diklo dağı; d. Paravan gölü.

V. **Briz gecə hansı istiqamətdə əsir, izah edin bu nə üçün baş verir?**

VI. **Kompas vasitəsilə ügüqün tərəflərini necə təyin etməliyik?**

VII. **Asteroidlər qurşağı günəş sistemində hansı planetlərin orbitləri arasında yerləşir?**

Keçid: şagirdin işinə; sizin tapşırılarınızın suallarına.

***Aşağıda hər hansı bir uşağın işi verilib:***

*I. a.*

*II. c.*

*III. d.*

*IV. d.*

*V. Gecə brizi qurudan dənizə tərəf əsir.*

*VI. Kompasın maqnit oxu ilə şimal istiqamətini təyin edirik və üzümüzlə şimala tərəf durmalıyıq, onun əks tərəfi cənub, sağ tərəfi qərb, sol tərəfi isə şərq olacaqdır.*

VII. *Yupiterlə Saturnun orbitləri arasında asteroidlər qurşağı yerləşir.*

Keçid: müəllimin hazırladığı yekunlaşdırıcı testə; sizin tapşırılarınızın suallarına.

*Sizin tapşırılarınızın sualları:*

39.1. (5) Şagirdin natamam və ya səhv cavabladığı  sualları cavablar vərəqəsindəki cədvələ X-lə işarə edin. Şagirdin səhvlərini düzəldin və tam cavabları yazın (Yalnız şagirdin səhvini tapıb, ona düz cavab versəz xalı qazanarsınız).

39.2.  (1) Müəllimin hazırladığı test tapşırığının hər bir sualını müvafiq dərs mövzusu ilə uyğunlaşdırın (Cavabları cavablar vərəqsində verilmiş cədvələ yazın):

| Yekunlaşdırıcı testin sualının nömrəsi | | Dərsin mövzusu |
|---|---|---|
| I | **1** | Yer kürəsinin hərəkəti |
| II | **2** | Günəş sisteminin quruluşu |
| III | **3** | Yerində səmtləşmə |
| IV | **4** | Təbiətdə su dövranı |
| V | **5** | Küləkklər |
| VI | **6** | Havanın temperaturu |
| VII | **7** | Daxili sular |
| | **8** | Vulkanlar və zəlzələlər |
| | **9** | Dünya okeanlarının hərəkətedici hadisələri |

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Keçid: müəllimin hazırladığı yekunlaşdırıcı testə;   şagirdin işinə.

# Akademik qabiliyyət

## Oxunmuş mətnin düşünülməsi

***40-46. (7)Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.***
***Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.***

Uşaq nə üçün təcavüzkar hərəkət edir? Nəzəriyyələrdən birinə əsasən, təcavüzkar hərəkətin aşkar edilməsi ehtimalı uşaqlara öz məqsədlərinə çatmaq üçün imkan verilməməsi zamanı artır. Tədqiqat zamanı eksperimentin iştirakçısı olan uşaqları iki qrup halında oyuncaqlarla dolu otağa daxil etdilər. Birinci qrupun oyunu dərhal başlamaq imkanı var idi, ikinci qrup isə şüşə maneənin o tayında dayanıb oyuncaqları uzaqdan müşahidə edirdi. İkinci qrupdakı uşaqlara uzun müddət gözlədikdən sonra oynamaq imkanı verildi. Məlum oldu ki, birinci qrupdan fərqli olaraq ikinci qrupdakı uşaqların əksəriyyəti oyuncaqlara qarşı təcavüzkarlıq edirdi. Onlar oyuncaqları sındırır və atırdılar. Maraqlıdır, bəzi uşaqlar nə üçün ümidsizliklə, müqavimət göstərən təcavüzlə cavab verir, bəzisi isə yox? Uşaq nə üçün ümidini itirmədiyi halda da təcavüzkar hərəkət edir? Yuxarıda göstərilən nəzəriyyə bu suallara cavab verə bilmədi, ancaq təcavüzün səbəbləri haqqında digər tədqiqat aparmağa əsas yaratdı.

Sonrakı tədqiqatlarda təcavüzkar hərəkəti izah edərkən müşahidəyə və təqlidə, uşaq tərəfindən vəziyyətin dərk edilməsinə, qiymətləndirilməsinə xüsusi əhəmiyyət verildi. Məsələn, əgər uşaq öz həmyaşıdının arzu etdiyi məqsədə təcavüzkar hərəkətlə nail olarsa, o da eyni cür hərəkəti təkrar etməyə çalışacaqdır. Albert Banduranın məşhur eksperimentində uşaqların üç qrupuna müxtəlif sonluqlarla film göstərdilər. Uşaq filmdə gəlinciyə var qüvvəsi ilə zərbə endirirdi. Qruplardan biri gördü ki,

Keçid: tekstin ikinci səhifəsinə; 40 - 41-ci suallara; 42 - 43-cü suallara; 44 – 45-ci suallara; 46-cı suala.

uşağı bu təcavüzkarlığa görə mükafatlandırdılar, ikinci qrup gördü ki, uşağı təcavüzkarlığına görə cəzalandırdılar, üçüncü variantda isə təcavüzkar hərəkətin nəticəsi olmadı – yaxud uşağı nə cəzalandırır, nə də mükafatlandırırdılar. Filmə baxdıqdan sonra uşaqları ikinci otağa apardılar, burada onları həmçinin gəlincik qarşıladı. Məlum oldu ki, bütün qrupların uşaqları gəlinciyə qarşı təcavüzkar hərəkət edirlər, ancaq hamıdan çox təcavüzkar hərəkət edənlər gəlinciyi döydüyünə görə uşağın mükafatlandırıldığını və ən az təcavüzkar hərəkət edənlər isə gəlinciyi döydüyünə görə uşağın cəzalandırıldığını görənlərdir.

Təcavüzkarlıq hərəkətinin səbəblərini axtararkən tədqiqatçılar uşaqların fərdi xüsusiyyətləri ilə maraqlandılar. Məlum oldu ki, həmyaşıdları ilə müqayisədə daha çox təcavüzkarlıq edən uşaqlarda sosial informasiyanın işlənib hazırlanması çətinlikləri müşahidə olunur. Ola bilsin ki, təcavüzkar uşaq tamamilə neytral, sakit, sosial işarəni ona qarşı düşmənçilik kimi qiymətləndirsin (məsələn, həmyaşıdının gülüşünü öna istehza kimi başa düşsün). Bu uşaqlar ətraf mühiti onlara qarşı düşmənçilik əhval-ruhiyyəsi kimi başa düşürlər, düşmənçilik əhval-ruhiyyəsini başqalarının adına çıxır və ona təcavüzlə cavab verirlər. Nəticədə təcavüzkar uşaqların öz həmyaşıdları ilə münasibətləri çətinləşir və tez-tez onlar həmyaşıdlarının dairəsindən kənarda qalırlar. Buna görə onların sosial təcrübəsi məhdudlaşır ki, bu da sosial baxımdan məqbul olan yeni hərəkətlərin mənimsənilməsinə mane olur. Müvafiq olaraq, təcavüzkar uşaqların qarşılıqlı əlaqəsi problemlərinin alternativ həlli vərdişləri az inkişaf etmiş olur, buna görə onlar təcavüzkarlıq hərəkətinin bu və ya digər formasına müraciət edirlər. Təcavüzkar hərəkətlə arzu olunana nail olmaq təcrübəsi, hərəkətin bu formasının xeyrinə qərar qəbul edilməsini asanlaşdırır.

Keçid: tekstin birinci səhifəsinə; 40 - 41-ci suallara; 42 - 43-cü suallara; 44 – 45-ci suallara; 46-cı suala.

**40. Aşağıda birinci abzasın strukturu haqqında müddəalar verilmişdir.  Onlardan hansı düzgündür?**

(ა) Abzasın başlanğıcında sual verilmişdir, həmin suala oradaca təqdim olunmuş illüstrasiya eksperimenti ilə ətraflı cavab verilmişdir. Abzasın sonunda verilən suallar isə bu eksperimentin nəticələrinin etibarlılığını şübhə altında qoyur.
(ბ)  Nəzəriyyələrdən biri və onun illüstrasiya eksperimenti verilmişdir və bu, abzasın başlanğıcında verilən suala qismən cavab verir. Abzasın sonunda isə təcavüzün izah edilməsinin yeni nəzəriyyələrinə təkan verən sualları vardır.
(გ) Nəzəriyyələrdən biri və onun illüstrativ eksperimenti müzakirə edilmişdir. O abzasın başlanğıcında verilən suala cavab verə bilməmişdir. Abzasın sonunda verilən suallar isə bizi təcavüzün əsl səbəbləri üzərində düşündürür.
(დ) Təqdim olunan eksperiment bizə təcavüzün səbəbləri barədə informasiya verir və müvafiq olaraq, abzasın başlanğıcında verilən sualla səsləşir. Abzasın sonunda verilən suallar isə tədqiqatın məqsədini əsaslı surətdə dəyişdirir.

**41. Birinci abzasda təsvir olunan eksperimentdə ikinci qrupun uşaqlarını oyun hüququ verilənədək uzun müddət gözlətdilər. Aşağıda sadalananlardan hansı bunun səbəbinin nə olduğunu daha dəqiq təsvir edir?**

(ა) Uşaqların oyun prosesinə xeyli sonra müşahidə edilməsi.
(ბ) İkinci qrupun uşaqlarının emosiyalarının idarə edilməsi qabiliyyətinin qiymətləndirilməsi.
(გ) Onlarda arzu edilmədiyinə səbəb olan emosional vəziyyətin yaranması
(დ) Uşaqların iki qrupunun oyunlarının xüsusiyyətlərinin bir-biri ilə müqayisə edilməsi

Keçid: tekstin birinci səhifəsinə; tekstin ikinci səhifəsinə.

**42. İkinci abzasda təqdim olunan eksperimentin nəticəsi (gəlinciyə qarşı təcavüzkar hərəkəti ən çox gəlinciyi döyməyə görə uşağın mükafatlandırıldığını görən qrupun uşaqları aşkar etmişlər) aşağıda sadalananlardan hansı nəticəni çıxarmaq imkanı verir?**

Təcavüzkar hərəkətin öyrənilməsi zamanı zəruridir:

(ა) Uşaq tərəfindən vəziyyətin qiymətləndirilməsi – təcavüzkar hərəkətə görə arzu olunan nəticənin əldə edilib-edilmədiyini dərk etmək

(ბ) Həmyaşıdlarının hərəkətini müşahidə etmək və bu cür şəraitdə həmin hərəkəti təkrar etmək imkanı

(გ) Təcavüz obyektindən (bu təqdirdə gəlincikdən) cavab təcavüzünün gözlənilməməsi

(დ) Təcavüz obyekti (bu təqdirdə gəlincik) eyni ilə elə olsun – uşaq ona qarşı təcavüzkarlıq edir, başqaları da ona qarşı təcavüzkarlıq edirlər.

**43. II abzas əsasında belə nəticəyə gələ bilərik ki, təcavüzü azaltmaq üçün uşağın fiziki cəzalandırılması:**

(ა) Adekvat metoddur, çünki cəzalandırma, ümumiyyətlə uşağın gələcəkdə cəzalandırıldığı hərəkəti etmək ehtimalını azaldır.

(ბ) Adekvat metod deyildir, çünki fiziki cəzalandırma ilə uşağa təcavüzkar hərəkət nümunəsini təklif edirik və o, ola bilər ki, gələcəkdə bu hərəkəti təlqin etsin.

(გ) Adekvat metoddur, çünki eksperimentdə iştirak edən hər üç qrupun uşaqları təlqin etmə yolu ilə təcavüzkar hərəkəti öyrənir.

(დ) Adekvat metod deyildir, çünki fiziki cəzalandırma ancaq müvəqqəti olaraq təcavüzkar hərəkəti söndürür, müvafiq olaraq, onun effekti sabit ola bilməz.

Keçid: tekstin birinci səhifəsinə; tekstin ikinci səhifəsinə.

**44. Birinci və ikinci abzaslarda təqdim olunan eksperimentlər arasında nə kimi əlaqə vardır?**

(ა) Hər iki eksperimentdən məqsəd təcavüzün səbəblərini müəyyənləşdirmək idi, ancaq yalnız ikinci eksperiment uğurlu çıxdı.
(ბ) Birinci eksperimentin nəticələri təcavüzün səbəbi barədə fərziyyəni təsdiqlədi, ikinci təqdirdə isə fərziyyə təsdiqlənmədi.
(გ) Hər iki eksperimentdə eyni yolla təcavüz yaratmağa çalışdılar, ancaq fərqli nəticələr aldılar.
(დ) Ancaq müxtəlif nəzəri yanaşma hüdudlarında hər iki eksperimentdən məqsəd təcavüzün səbəblərini müəyyənləşdirmək idi.

**45. Aşağıda verilmiş hər cavabda həmyaşıdlarından daha çox təcavüzkar hərəkətlə seçilən uşaqların iki xarakteri verilmişdir. I səbəb II isə nəticə olan xarakterlər hansı cavabda yoxdur?**
(ა) I. Sosial informasiyanın işlənib hazırlanmasında çətinliklər müşahidə olunur; II. Ətrafdakı sosial işarələri qeyri-düzgün qiymətləndirirlər.
(ბ) I. Həmyaşıdlarının dairəsindən uzaq düşmüşlər; II. Yeni sosial baxımdan məqbul hərəkət formalarının mənimsənilməsi imkanı yoxdur.
(გ) I. Onlar ətraf mühiti özləri üçün düşmən əhval-ruhiyyəli sayırlar; II. Təcavüzkar hərəkətlə arzu edilənə nail olmaq təcrübəsi vardır.
(დ) I. Qarşılıqlı əlaqələrin qeyri-təcavüzkar yolla qaydaya salınması vərdişləri azdır; II. Həmyaşıdları ilə qarşılıqlı əlaqədə çətinlik çəkirlər.

Keçid: tekstin birinci səhifəsinə; tekstin ikinci səhifəsinə.

**46. Mətnin son cümləsinin əsasında belə nəticəyə gəlmək olar ki:**

(ა) Əgər məqsədimiz uşağın təcavüzünü azaltmaqdırsa, ona bu formanın vasitəsilə arzu edilən nəticəni əldə etmək imkanı verməməliyik.
(ბ) Əgər uşaq təcavüzkar hərəkətlə arzu etdiyi məqsədə daha tez-tez çatırsa, o öz qərarının düzgünlüyünə daha çox əmindir.
(გ) Uşaq təcavüzkar hərəkətə nə qədər tez-tez əl atırsa, bir o qədər tez-tez arzu etdiyi məqsədə çatır.
(დ) Əgər məqsədimiz uşağın təcavüzünü azaltmaqdırsa, ətrafda olanlar ona qarşı daha çox xeyirxah əhval-ruhiyyədə olmalıdırlar.

Keçid: tekstin birinci səhifəsinə; tekstin ikinci səhifəsinə.

# Analitik yazı

**47. (11)** 1978-ci ildə Astrid Lindqrensə “Sülh mükafatı” təqdim etdilər. Yazıçı nitq söylədi. Astrid Lindqrenin çıxışından bir neçə çıxarışı təqdim edirik:

“Bəşəriyyət yarandığı gündən mübarizə edir və müharibə aparır. Bəlkə özümüzdən soruşaq, bütün bunları hər gün biz özümüzmü yaradırıq ki, bizi daimi olaraq münaqişələrə doğru aparsın?

... Bir dəfə bir pastorun arvadı mənə dedi ki, uşağım olanda döyməyin xeyrinə inanmırdım, buna baxmayaraq o zaman cəzalandırma məqsədilə uşaqları “şallaq”la döymək geniş yayılmış metod idi. Lakin sonra, uşaq 4 yaxud 5 yaşına çatanda nəsə elə bir şey törətdi ki, pastorun arvadı uşağını “şallaq”lamaq qərarına gəldi. Uşağı özü həyətə çubuq gətirməyə göndərdi. Xeyli sonra geri qayıtmış gözü yaşlı oğlan anasına daş uzatdı və dedi: “Çubuk tapa bilmədim, istəyirsən bu daşı mənə at” Ana uşağının gətirdiyi daşı mətbəxin rəfinə qoydu və bu daş ona zorakılığın çıxış yolu olmadığını daim xatırlatdı.

... Əgər uşaqları cəzalandırmaqdan əl çəksək, sığallasaq və ürəyimizə sıxsaq hamı birdən-birə xeyirxah olarmı? Bütün müharibələr dayanarmı? Əlbəttə, yox. Bu cür utopiyaya yalnız uşaq yazıçıları inana bilərlər.

... Mətbəxin rəfində daş olması bizim heç birimizə ziyan verməzdi”.

- **Uşağın arzuolunmaz hərəkətinə ictimaiyyətin (ailə, məktəb, icma...) necə reaksiya etdiyini müzakirə edin; reaksiyanın bu və ya digər forması hansı nəticəni verər;**
- **Uşağın arzuolunmaz hərəkətinə ictimaiyyət necə reaksiya verməlidir.**

*Müzakirələri möhkəmləndirmək üçün dəlillər və misallar gətirin. Sizin yazdığınız əsərdə ən azı 100 söz olmalıdır.*